# XX YÜZİLLİYİN 20-ci İLLƏRİNDƏ AZƏRBAYCAN TORPAQLARININ ERMƏNİSTAN TƏRƏFİNDƏN İŞĞAL EDİLMƏSİ

**Bizim ata-baba torpaqlarımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük. Halbuki sürə bilərik. Çünki indiki Ermənistan yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Tarixi faktlar və araşdırmalar sübut edir ki, "Türkmənçay" müqaviləsindən sonra kütləvi şəkildə Azərbaycan torpaqlarına köçüb gələn ermənilər heç də özlərini yaxşı aparmırdılar və yerli azərbaycanlı əhalinin rahatlığını pozub, onlara qarşı qəddar hərəkətlər edirdilər. Ermənilərin pis və amansız davranmaları hətta onların köçürülmə planının müəlliflərindən biri olan A.Qriboyedovu da narahat etməyə başladı. Buna görə də özlərini pis aparan ermənilərin bu hərəkətlərinə görə Qriboyedov yazmışdır: "... ermənilər ilk dəfə buraxıldıqları torpaqlara həmişə sahib çıxırlar". Akademik V.L.Veliçko yazmışdır: "bütün qafqazlılar bilirlər ki, ermənilər burada köklü əhali deyillər, kütləvi surətdə buraya XIX əsrin birinci yarısında Türkiyəni tərk edən qaçqınlar kimi gəlmişlər". (ətraflı bax: Величко В. "Кафказ, русские дело и междуплеменное вопросы" С.Петербург, 1904).

Beləliklə, zaman-zaman erməni qəsbkarları Azərbaycan torpaqlarını işğal etmiş və özlərinə dövlət yarada bilmişlər. Prezident İlham Əliyev demişdir: "Biz heç kimin torpağını zəbt etməmişik. Halbuki indiki Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında formalaşıbdır. İrəvan şəhərini AXC rəhbərliyi 1918-ci ildə Ermənistana hədiyyə edibdir. Yumşaq desək, o da böyük bir səhv idi. İrəvan xanlığı əzəli Azərbaycan torpağıdır. Bir daha demək istəyirəm ki, ermənilər bu bölgəyə qonaq kimi gəlmişdilər".

Azərbaycanın ayrı-ayrı ərazilərinin Ermənistan və Gürcüstan tərəfindən ələ keçirilməsi, bu işdə mərkəzin onlara havadarlıq etməsi məsələləri külli miqdarda arxiv sənədlərində öz əksini tapmışdır. Azərbaycanın torpaqlarının itirilməsində Sovet Rusiyasının, yəni mərkəzin günahları çoxdur. Qəribəsi odur ki, Sovet Rusiyasına ilk sığınan Azərbaycan olduğuna baxmayaraq, yenə də Azərbaycana münasibətdə Sovet Rusiyası ikili siyasət yeridir, erməniləri müxtəlif bəhanələrlə müdafiə edirdi. Xristian Ermənistana meyil etmək Rusiya diplomatiyası üçün üstün istiqamət olmuşdur, "mübahisəli ərazilər" məsələsində sovet rəhbərliyi həmişə Ermənistanı və Gürcüstanı müdafiə etmişdir. Sovet Rusiyasının ikiüzlü siyasətinin tam mahiyyətini üzə çıxaran faktlardan biri də odur ki, Naxçıvanda ermənilərin hücumlarının qarşısını qətiyyətlə alan, görkəmli türk generalı Veysəl Nüvar yazırdı ki, Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra mərkəz ikiüzlü siyasət yeridirdi. (Azərbaycan tarixi. 7 cilddə. VI cild., Bakı: Elm, 2000, s. 39-40).

Cənubi Qafqazda XI ordunun ilk işğal hədəfi Azərbaycan oldu. Düşünmək olardı ki, o dövrün güclü dövləti və ordusu olan Sovet Rusiyası vədinə əməl edəcək və Azərbaycana tez-tez dağıdıcı basqınlar edən daşnak Ermənistanın quldur hərbi birləşmələrindən mühafizə edəcəkdir və vəd etdiyi kimi, ərazi bütövlüyünün təminatına kömək edəcəkdir. Ancaq əksinə oldu, ermənilərin ərazi iddiaları daha da artdı, daşnak quldurlarının hücumları intensiv xarakter aldı. Erməni silahlı quldur dəstələri general Dro, tayqulaq Andranik və polkovnik Njdenin komandanlığı altında 1920-ci ilin iyulunda daşnaklarla birlikdə Gorus-Naxçıvan, Zəngəzur, Qarabağ ərazilərinə dağıdıcı basqınlar etdilər. Sonra ermənilər Şuşa, Lənkəran, Astara və b. yerlərə hücum etdilər. Qafqaz briqadasının 28-ci atıcı diviziyasının rəhbərliyinin verdiyi məlumata görə, 1920-ci ilin iyulundan 1921-ci ilin yanvarına qədər erməni silahlı quldurları Naxçıvana, Ordubada dəfələrlə qarətçi hücumlar etmiş, çoxlu adam öldürmüşlər. (Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi, f.379, siy.3, i.2953, 92-94).

1920-ci il avqustun 10-da Azərbaycan rəhbərliyinin və Azərbaycan xalqının iştirakı və xəbəri olmadan Sovet Rusiyası ilə Ermənistan daşnak hökuməti arasında 6 bənddən ibarət müqavilə imzalandı. Altı bənddən dördü ərazi məsələlərinə həsr edilmişdi. Müqavilənin ikinci bəndində deyilirdi: "Ermənistan Respublikası qoşunlarının yerləşdirilməsi üçün bu sazişlə müəyyən edilmiş zolaqlar istisna olmaqla mübahisəli vilayətlər — Qarabağ, Zəngəzur qəzası və Naxçıvan diyarı RSFSR qoşunları tərəfindən tutulur". Ərazi məsələləri ilə bağlı olduqca ədalətsiz qərar qəbul edilir. Həmin müqavilənin şərtlərinə görə, Azərbaycana məxsus olan Şərur-Dərələyəz bölgəsi bütövlükdə qeyd-şərtsiz Ermənistana verildi. Qarabağ, Zəngəzur və Naxçıvan isə "mübahisəli ərazilər" elan olundu. Şərur-Dərələyəz bölgəsinin belə səxavətlə Ermənistana "bağışlanması" ermənilərin iştahını daha da artırdı və Azərbaycanın digər ərazilərinin, o cümlədən Zəngəzurun işğalına siyasi zəmin yaratdı. Bununla Sovet Rusiyası Azərbaycan torpaqları hesabına Ermənistanı sovetləşdirmək siyasəti yürüdürdü. Ərazi məsələləri ilə bağlı mərkəzin belə ədalətsiz mövqeyinə ciddi etirazını bildirən N.Nərimanov Moskvaya həyəcanlı teleqramlar və Azərbaycan nümayəndə heyətini göndərmişdi.

Ancaq çox təəssüf ki, N.Nərimanovun bu teleqramı (məktubu) cavabsız qalır. Görünür ki, Çiçerin də öz müavini, milliyyətcə erməni olan Qaraxanın təsiri ilə bu məktuba reaksiya vermir. Ancaq ermənilər özbaşına olaraq Azərbaycan torpaqlarını işğal edərək Zəngəzur və Mehri qəzalarını yaratdılar, bir növ dəhliz yarandı, Naxçıvan diyarı Azərbaycandan süni surətdə ayrı düşdü.

Sovet Rusiyası var gücü ilə Ermənistanı sovetləşdirmək siyasəti yeridir və bu yolda ona hər bir köməklik göstərməyi vəd edirdi. 1920-ci il noyabrın 29-da, Ermənistanda Sovet hakimiyyəti qurulan günün sabahı, yəni noyabrın 30-da N.Nərimanov AK (b) P MK-nın Siyasi və Təşkilat bürosunun iclasında çıxış etdi və həmin iclasda qərar qəbul edildi. N.Nərimanovun çıxışında və qəbul edilən qərarda Ermənistanda Sovet hakimiyyətinin qurulması təbrik edilir və göstərilirdi ki, bundan sonra Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında "heç bir sərhəd mövcud deyildir...". 1920-ci il dekabrın 1-də Bakı sovetinin geniş iclasında qəbul edilən qətnamədə iki sovet respublikaları arasında (Azərbaycan və Ermənistan respublikaları) gələcəkdə iqtisadi, təsərrüfat və hərbi əlaqələrin yaranması və müqavilələrin bağlanması üçün əlverişli şərait yarandığı bildirilirdi. Ancaq ertəsi gün, yəni dekabrın 2-də dərc edilən mətbuat səhifələrində qətnaməyə belə bir fraza əlavə edilmişdi: "Zəngəzur ərazisi və Naxçıvan qəzası Sovet Ermənistanının ayrılmaz hissəsidir"(?!) Şübhə yoxdur ki, bu fraza N.Nərimanovun xəbəri olmadan Q.K.Orconikidze və S.M.Kirovun diplomatik oyunu kimi daxil edilmişdi (Гулийев Дж. Б. К истории образования второй республики Азердбайджана. Баку: Элм, 1997, с.122). Bu isə ciddi səhv idi. Beləliklə, müxtəlif aldadıcı və fırıldaq yollarla qəsdən "səhvlər" edən mərkəzin ermənipərəst emissarları ermənilərin işğal planlarına şərait yaradır və onlara köməklik göstərirdilər.

Rəsmi dövlət sənədlərində SSRİ-nin tərkibinə daxil olarkən (30 dekabr 1922) Azərbaycanın ərazisi 81.275 verst, Ermənistanın ərazisi isə 27.153 verst idi. (bax: Краткий обзор материалов к докладу Закавказского правительства. Тифлис, 1952 с.8). Bu rəqəmlərdən də aydın olur ki, Batum müqaviləsində müəyyən edilmiş ərazidən (92 min kv.km) xeyli çoxdur.

Ermənistanın şovinist ruhlu hakim dairələri Moskvadakı himayədarlarının köməyi ilə Azərbaycanın, o cümlədən Naxçıvanın bir çox torpaqlarını zorla qoparıb öz ərazilərinə birləşdirməyə nail ola bildilər. "1929-cu ildə Zaqafqaziya MİK-in qərarı ilə Naxçıvanın 657 kvadratkilometr ərazisi — Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzasının Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qorçevan kəndi, habelə Kilid kəndi torpaqlarının bir hissəsi Ermənistana verildi. 1930-cu ildə isə Əldərə, Lehvaz, Astazur, Nüvədi və sair yaşayış məntəqələri Ermənistana verilmiş, həmin ərazilərdə Mehri rayonu yaradılmışdı" (Əliyev H.Ə. Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə dövlət komissiyasının iclasında nitq // "Azərbaycan" qəzeti, 11 fevral 1999-cu il). Naxçıvan MSSR-in ərazisi Qars müqaviləsi ilə müəyyən olunmuş əvvəlki 5988 km-dən ərazisindən 658,4 km əzəli torpaq sahəsi qoparılaraq Ermənistana qatılmaqla, 1933-cü ildə onun ərazisi 5329,6 kvadratkilomertədək azaldı. 1922-ci ilin oktyabrında hazırlanan arayışda isə göstərilirdi ki, Zəngəzur qəzasından 405.000 desyatin, Qazax qəzasından 379.984 desyatin ərazi Ermənistana verildi. (Mehdiyev R. Gorus - 2010 absurd teatrı mövsümü. Bakı, 2010, s. 68-89).

Beləliklə, Zaqafqaziya MİK-in ədalətsiz qərarı ilə Naxçıvanın 9 kəndi Ermənistana verildi.

Zəngəzuru ələ keçirməyə can atan ermənilər 1920-ci ilin sonundan başlayaraq tez-tez hücumlar edirdilər. Rəsmi İrəvan XI ordu ilə saziş imzaladı və onun köməyi ilə 1921-ci ilin iyulunda Zəngəzurun yuxarı hissəsini işğal etdilər. Beləliklə, Azərbaycan torpaqları olan 11.000 kv.km ərazimiz (buraya əsasən Zəngəzur qəzası, Şərur-Dərələyəz qəzası və Göyçə dairəsi daxil idi) Ermənistana verildi (Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı, 2006, s. 131).

Qəribədir ki, o zamankı Azərbaycan rəhbərliyi rəsmi şəkildə bu işğalı etiraf etmişdi. 1921-ci ilin oktyabrında Az.MİK-in sessiyasında qeyd edilmişdir ki, Zəngəzur qəzası iki hissəyə ayrılmışdır. Birincisi, Zəngəzurun şimal-qərb hissəsi Ermənistanın tərkibinə verilmişdir, ikincisi, digər hissəsində isə Azərbaycanın tərkibində olan Qubadlı qəzası yaradılmışdır. (bax: Первая и вторая сессии пленума Аз.ЦИКА, Б., 1921, с.22)

Zəngəzur və Şərur-Dərələyəz məsələsində Sovet Rusiyasının mövqeyi dəfələrlə dəyişsə də, ancaq onun gizli planları var idi və birmənalı şəkildə ermənilərin ideyaları ilə üst-üstə düşürdü. Lakin Rusiya kimi böyük bir dövlətin xarici siyasət planlarında Lenini və Çiçerini öz bədnam fıkirlərindən döndərmək olduqca çətin idi. Erməni əhatəsində fəaliyyət göstərən N.Nərimanovun qətiyyətinə baxmayaraq, o tək qalırdı. Bu yerdə N.Nərimanovun mövqeyinin "qələbəsinə" Türkiyə həlledici kömək göstərdi. 1921-ci il martın 12-də Moskva müqaviləsinin imzalanması danışıqları zamanı Türkiyə nümayəndə heyəti qətiyyət nümayiş etdirərək Şərur-Dərələyəz dairəsinin bütövlükdə Azərbaycanın tərkibində saxlanılması ideyası ilə çıxış etdi. Türkiyə tərəfi öz mövqeyini belə dəlillərlə əsaslandırdı ki, birincisi, məhz bu yerlərdə məlum qanlı hadisələr baş vermiş və türk qoşunlarının bölgəyə gəlməsinə ehtiyac yaranmışdır; ikincisi, bütün bu dairə müsəlmanlarla məskunlaşmışdır. Bütün bunlara görə həmin ərazi üzərinə himayə hüququ Azərbaycana verilməlidir (Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, 201, s. 398-400).

Zaqafqaziya Sovet Respublikalarının sərhəd məsələlərini həll etmək üçün 1921-1922-1923-cü illərdə rəsmi nümayəndələr vasitəsilə çoxlu danışıqlar olmuşdu. Yerli nümayəndələr dəfələrlə RK(b)P Qafqaz Bürosuna, Zaqafqaziya MİK-ə müraciətlər etmiş (ARMD, f.379, siy.3, i.2990, 20-23), mübahisəli və mübahisəsiz ərazilərin obyektiv həllinə kömək etməyi xahiş etmişlər. Az. MİK-in 15 aprel 1922-ci il tarixli qərarı ilə Azərbaycan və Ermənistan SSR arasında mübahisəli torpaq məsələsini həll etmək üçün 2 komissiya yaradılmışdır:

1) Qazax rayonu üzrə - komissiya üzvü Müseyib Əliyev, İbrahim Vəkilov və Əhməd Abbasov.

2) Qarabağ üzrə - komissiya üzvlərinin tərkibini müəyyənləşdirmək üçün Şuşa qəza İcraiyyə Komitəsinə göstəriş verilmişdi (ARMD, f.379, siy.3, i.2953, v.262).

AK (b) P-nın Siyasi və Təşkilati Bürosunun 27 iyun 1921-ci il tarixli iclasında Azərbaycan ilə Ermənistan arasında sərhəd məsələsi müzakirəyə çıxarılmışdı. Qərara alınmışdı ki, məsələnin doğru həlli erməni və müsəlman kütlələrini geniş şəkildə sovet quruculuğuna cəlb etməkdən ibarətdir (Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi, f.1, siy.2, ı.18, v. 93).

Rəsmi Moskvanın emissarları Azərbaycanda dövlət və hökumət strukturlarına sürətlə doluşur və bütün sahələrdə üstünlüyü ələ keçirirdilər. Bu baxımdan ali qanunverici hakimiyyət orqanı olan Az.MİK də istisnalıq təşkil etmirdi. Az.MİK-in 9 sentyabr 1922-ci il tarixli instruksiyası ilə tanış olan komissiyanın üzvləri sərhədlərin müəyyənləşdirilməsi ilə əlaqədar olaraq Şuşa, Cəbrayıl, Şamxor, Gəncə, Qazax, Nuxa, Zaqatala, Ağdaş və b. bölgələrə göndərilmişdilər (ARMD, f.379, siy.3, i. 3026, 3). Həmin komissiya üzvlərinin heç biri azərbaycanlı deyildi. Həmin komissiyalara Az.MİK-in rəhbərliyi tərəfindən qısa müddətdə sərhədləri müəyyənləşdirib təsdiqə verməleri tapşırılmışdı. Doğrudan da, Az.MİK-in təsiri ilə həmin komissiyaların arayışları əsasında Bakı, Gəncə, Şamxor, Qazax, Cavanşir, Şuşa, Cəbrayıl, Quba, Zaqatala, Nuxa, Ağdam, Şamaxı, Qubadlı, Salyan və Lənkəran qəzalarının sərhədləri müəyyənləşdirildi (ARMD, f.379, siy.3, i.3026, v.6-7). Ancaq sonralar Ermənistan hökumətinin iddiaları əsasında bəzi qərarlarda "mübahisəli ərazilər" yenidən ortaya çıxdı və gərgin mübahisə obyektinə çevrildi. Məsələn, Kürdüstan qəza İcraiyyə Komitəsinin 18 noyabr 1923-cü il tarixli qərarında göstərilirdi ki, Zəngəzur ilə Qubadlı arasında və Zəngəzur ilə Kürdüstan arasında mübahisəli ərazi məsələsi qalmaqdadır (ARMD, f.379, siy.3, i.3020, v.2). Tərəflər müxtəlif iddialarla çıxışlar edirlər və kömək üçün Az.MİK-in qərarını gözləyirlər.

Arxiv sənədlərinin araşdırılması nəticəsində məlum olur ki, əvvəllər olduğu kimi, yenə də Ermənistan tərəfindən Qazax qəzasında sərhəd pozuntusu olmuşdur. Mübahisəli ərazi məsələsini həll etmək üçün Qazax qəza İcraiyyə Komitəsi AZ.MİK-ə və Zaqafqaziya MİK-ə rəsmi müraciət edərək (ARMD, f.379, siy.3, i.2990, v.4) məsələnin ədalətli həllini xahiş etmişdir. Belə bir müraciət Zəngəzur və Kürdüstan qəzalarından da daxil olmuşdu. Deməli, ermənilər yenə də dinc durmur və Azərbaycan torpaqlarını ələ keçirmək üçün müxtəlif bəhanələrdən istifadə edirdilər. Ermənistan MİK 1923-cü ilin sentyabrında Zəngəzur və Qubadlı qəzaları arasında mübahisəli sərhəd məsələlərini həll etmək üçün Zaqafqaziya MİK-ə xahiş etdi. Məsələni həll etmək üçün Zaqafqaziya MİK-in 18 oktyabr 1923-cü il tarixli qərarı və Struanın sədrliyi ilə komissiya yaradıldı. Həmin komissiya 1923-cü ilin oktyabrında Kürdüstan və Zəngəzur qəzaları arasında mübahisəli sərhəd məsələsini həll etməli idi. Buradaca qeyd etməyi vacib bilirik ki, Zaqafqaziya MİK-in 18 oktyabr 1923-cü il tarixli qərarı ilə Qazax və Dilican qəzaları arasında sərhəd xətti müəyyənləşdirilmişdi (ARMD, f.379, siy.3, i.2990, v.5). Ancaq bu sərhəd xətti qeyri-müəyyən olduğundan ona yenidən baxılmasını zaman özü göstərdi.

Acgöz və nankor qonşularımız torpaqlarımızı işğal etmək üçün bütün hiyləgər və riyakar əməllərinin hamısından istifadə edir və Mərkəzin havadarlığından lazımınca faydalanırdılar. Bu "başkəsən ermənilər" (Strabon) dinc durmur, yenidən yalan və böhtanlar atmağa başladılar. 1924-cü il noyabrın 3-də Mehri rayon İcraiyyə Komitəsindən Zəngilan qəza İcraiyyə Komitəsinə belə bir sənəd daxil oldu: sənəddə deyilirdi ki, Tuqut kəndi Ermənistanın ərazisinə daxildir. Bunu bilən Tuqut kənd əhalisi böyük bir yığıncaq təşkil etdi və bütün kənd əhalisi ümumi bir ərizə tərtib edib Nüvədi kənd Sovetı sədrinə göndərdi. Həmin ərizədə deyilirdi ki, bu ərazilər qədimdən bizimdir. (ARMD, f.379, siy.3, i.3099, v.43).

Sovet hakimiyyətinin ilk illərində ermənilərin bütün iddiaları Az.MİK tərəfindən qətiyyətlə rədd edilmiş və hətta mübahisəli torpaqlar məsələsi Azərbaycanın xeyrinə həll edilmişdir (DQMV istisna olmaqla). Bunu arxiv sənədləri də təsdiq edir. Zaqafqaziya MİK tərəfindən yaradılan Torpaq Komissiyası 1925-ci il sentyabrın 18-də akt tərtib etmiş və bildirmişdir ki, Azərbaycan ilə Ermənistan arasında "mübahisəli torpaq" məsələsi yoxdur (ARMD, f.379, siy.3, i.997, v.9-11). Buna görə də həmin komissiya öz fəaliyyətinə son qoydu. Ancaq sovet inzibati-amirlik sisteminin getdikcə güclənməsi İttifaq ərazisində bütün daxili və xarici siyasət məsələlərinin, o cümlədən taleyüklü məsələlərin həll edilməsi vahid bir mərkəzin əlində cəmləşməsinə əlverişli zəmin yaratdı. Mərkəz hər hansı bir məsələnin həllində aparıcı qüvvə idi və istədiyi məsələni də bildiyi kimi "həll edirdi". İyirminci illərin ikinci yarısında mərkəzin himayəsindən istifadə edən Ermənistan SSR yenidən Azərbaycan SSR-ə qarşı torpaq iddiaları ilə çıxış etməyə başlayır. Hətta Ermənistan SSR rəhbərliyi fırıldaq yolu ilə sadə üsula əl atır və bildirir ki, Ermənistanda heyvandarlığın inkişafı, mal-qaranın artımı üçün əlverişli şərait yoxdur və buna görə də "yay əkin sahəsi" adı altında yeni əlavə torpaqlar lazımdır. Ermənistan tərəfi Azərbaycana məxsus olan 4031,5 desyatin torpağı (ARMD, f.379, siy.3, i.997, v.10) həmin hiylə ilə ələ keçirmək iddiasına düşür və bunu Zaqafqaziya MİK-dən xahiş edir.

Zaqafqaziya MİK 1927-ci il yanvarın 11-də Azərbaycan və Ermənistan SSR MİK-lərinə tapşırır ki, Qazax və Dilican arasında olan "mübahisəli torpaq" məsələsini 2 həftə müddətində razılaşıb həll etsinlər və Zaqafqaziya MİK-in təsdiqinə versinlər. Verilən tapşırığa əsasən Azərbaycan tərəfi məsələləri həll etmək üçün dəfələrlə erməni tərəfinə müraciətlər etsə də, ermənilər danışıqların heç birinə gəlməmişdilər. Fevralın 4-də bu barədə Zaqafqaziya MİK-ə məlumat verilmişdi (ARMD, f.379, siy.3, i.997, v.6-7). Azərbaycan tərəfi tapşırıqları müntəzəm icra etməsinə baxmayaraq, birdən-birə Az.MİK-in xəbəri və razılığı olmadan Zaqafqaziya MİK 1927-ci il martın 31-də belə bir ədalətsiz qərar çıxardı: həmin qərara görə Azərbaycanın Zəngəzur qəzasına aid olan və sərhəd zolağında yerləşən 172,8 desyatin ərazi "mübahisəli zonaya" daxil edilərək onun 56,1 desyatini Ermənistana verildi, 116,7 desyatini isə Azərbaycanda saxlanıldı (ARMD, f.379, siy.3, i.1000, v.1). Zəngəzur qəzasının 56,1 desyatin torpaq sahəsinin Ermənistana verilməsi barədə Zaqafqaziya MİK-in qərarı yerli əhaliyə məlum olan kimi, dərhal bu ədalətsiz qərara etiraz etmişdi. Az.MİK həmin qərarı rədd etmiş və Azərbaycan Xalq Torpaq Komissarlığına tapşırıq verir ki, bu mübahisəli məsələləri araşdırıb, ədalətlə həll etsin. Materiallar hazırlanır və Az.MİK-ə göndərilir. Az.MİK həmin materialları özünün rəsmi sənədi ilə birlikdə 1927-ci il sentyabrın 6-da Zaqafqaziya MİK-ə göndərir (ARMD, f.379, siy.3, i.1000, v.12-13) və bildirir ki, həmin ərazilər əzəli Azərbaycan torpaqlarıdır. Təəssüf ki, Az.MİK-in obyektiv qərarı nəzərə alınmır. Ancaq Az.MİK-in bu xahişini və məlumatını nəzərə almayan Zaqafqaziya MİK məsələni erməni hiyləgərlərinin xeyrinə həll edir.

Zaqafqaziya MİK Rəyasət Heyətinin 1927-ci il 1 yanvar tarixli iclasının qərarı ilə Cəbrayıl qəzasının 24 kəndi, 1927-ci il 20 iyun tarixli iclasının qərarı ilə isə Zəngəzur-Kürdüstan qəzasının 1.065 desyatin ərazisi "mübahisəli ərazi" kimi kimə məxsus olduğu məsələsi müzakirəyə çıxarılmışdı. Hiyləgər ermənilər "öz işlərini" gördülər və Mərkəzin köməyindən istifadə etdilər. Zaqafqaziya MİK-in 1929-cu il fevralın 18-də M.Sxakayanın sədrliyi, Azərbaycan nümayəndələrindən isə D.Bünyadzadə, M.C.Bağırov və S.Yaqubovun iştirakı ilə keçirilən iclasında (protokol N3) Mehridə erməni rayonu yaratmaq adı altında Zəngilan rayonunun 3 kəndi — Tuqut, Nüvədi və Eynazur Ermənistana verildi. (bu kəndlərin verilməsinə dair rəsmi qərar yalnız 1968-ci il noyabrın 26-da Azərbaycan KP MK Bürosu tərəfindən çıxarıldı və o, 1969-cu il mayın 7-də Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə təsdiq olundu). 1938-1939-cu illərdə Eynazur kəndi Nüvədi kəndi ilə, Tuqut kəndi isə Astazurla birləşdirildi (Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində. Beşinci kitab. Bakı, 1997, s.296).

Az.MİK-in qərarı və razılığı olmadan Zaqafqaziya MİK-in 1929-cu il 18 fevral tarixli qərarı ilə aran Qarabağın əraziləri olan Nüvədi, Eynazur və Tuqut (Cəbrayıl qəzasının kəndləri), həmçinin Ordubad qəzasının Kərkivan kəndi, Kilid kəndi torpaqlarının bir hissəsi Ermənistana verildi (Köçərli T. Qarabağ: Yalan və həqiqət. Bakı, 1998, s.69). Süni yolla Mehri rayonu yaradıldı.

Bu itirilən torpaqların hamısını ürək yanğısı ilə qeyd edən ümummilli lider Heydər Əliyev demişdir: "...1929-cu ildə Zaqafqaziya MİK-in qərarı ilə Naxçıvan Muxtar Respublikasının 657 kv. km torpağı Ermənistana verilmişdi... Başqa torpaqlar da verilibdir... Sırf Azərbaycan kəndi olan Nüvədi kəndi də 1929-cu ildə Azərbaycanın tərkibindən Ermənistana verilibdir... Nüvədi kəndinin əhalisi çox dəyanətli insanlardır..., hətta Nüvədi əhalisi 1991-ci ildə çıxmırdılar..., onları zorla çıxartdılar... Ermənilər Zəngilanı (o vaxt Cəbrayıl qəzası idi) alanda Araza çıxan ərazinin 10 kilometr dəmir yol xəttini işğal etmişdilər... İndi isə 46 kilometr Arazboyu ərazini ələ keçiriblər...". (Əliyev H.Ə. Naxçıvanın muxtariyyatı tarixi nailiyyətimizdir və biz bunu qoruyub saxlamalıyıq // "Respublika" qəzeti, 17 yanvar 1998-ci il).

Beləliklə, Zəngəzurun cənub-qərb torpaqlarının ermənilərə "bağışlanması" nəticəsində Mehri rayonu təşkil edildi, Azərbaycan isə Naxçıvandan ayrı salındı. Azərbaycanın Naxçıvanla və Türkiyə ilə əlaqəsi kəsildi, Azərbaycan torpaqları parça-parça edildi (Əliyev H.Ə. Naxçıvanın muxtariyyatı tarixi nailiyyətimizdir və biz bunu qoruyub saxlamalıyıq // "Respublika" qəzeti, 17 yanvar 1998-ci il).

Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətindən danışarkən Prezident İlham Əliyev demişdir: "Qədim Azərbaycan torpağı olan Zəngəzur mahalının süni şəkildə Ermənistana verilməsi böyük ədalətsizlik idi. Bunun çox böyük mənfi nəticələri oldu. Bu, bütün türk dünyasını parçaladı" (Əliyev İ.H. Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağında nitq // "Respublika" qəzeti, 27 aprel 2011-ci il).

Araşdırmalar zamanı aydın olur ki, Zaqafqaziya respublikaları arasında torpaq və sərhəd məsələlərini "həll edən" Mərkəz həmişə erməni tərəfinin sözünü demişdi. Bundan da istifadə edən yaramaz erməni şovinistləri birbirinin ardınca Azərbaycan torpaqlarını hərisliklə ələ keçirirdilər. Canavar dişlərini itilədən erməni başçıları Gəncə dairəsinə məxsus olan Lori-Pəmnək ərazisini "mübahisəli ərazi"yə daxil edəndə Azərbaycan rəhbərliyi bu ərazi barədə geniş məlumat hazırlayıb Zaqafqaziya MİK-ə göndərdi (ARMD, f.379, siy.3, i.2715, v.6). Həmin sənəddə deyilirdi ki, bu ərazilər lap çoxdan, tarixən Azərbaycan ərazisidir və əhalisi də azərbaycanlılardır. Az.MİK-in göndərdiyi həmin sənəd Zaqafqaziya MİK-in Rəyasət Heyətinin 7 oktyabr 1929-cu il tarixli iclasında müzakirəyə çıxarılır. Müzakirə zamanı 4844 hektar ərazi "mübahisəli ərazi" kimi göstərilir (ARMD, f.379, siy.3, i.2715, v.3). Azərbaycan tərəfi yoxdan meydana çıxan bu "mübahisəli ərazi"ni əsassız hesab edir və bunu ermənilərin uydurduğu yeni bir avantürist plan adlandırır. Qəribəsi odur ki, həmin iclasda heç bir qərar qəbul etməyən Zaqafqaziya MİK Rəyasət Heyəti az sonra Azərbaycanın xəbəri olmadan Lori-Pəmnək ərazisini, 4844 hektar ərazimizi birdən-birə Ermənistana "bağışlayır". Az.MİK-in bütün etirazları kağız üzərində qalır. Beləliklə, rəsmi Moskva heç kimlə qətiyyən hesablaşmır və Azərbaycan torpaqlarını bol-bol ermənilərə "bağışlayırdı". Azərbaycan rəhbərliyi isə mərkəzin qərarını rədd etmək zorunda deyildi. 1929-cu ildə Azərbaycanın 13 min hektar ərazisi - Naxçıvanın 9 kəndi (582,9 des.), Qaymaqlı və Kürümüzlü ərazisi (238,9 hektar) Ermənistana verildi. 1938-ci il martın 5-7-də imzalanmış prtokola əsasən Laçının Qaragöl yaylası, Qubadlının Çayzəmi sahəsi, Qazağın Kəmərli kəndi və Kəlbəcərin Zod sahəsi Ermənistana verildi (Azərbaycan tarixi. 7 cilddə. V cild, Bakı: Elm, 2001, s. 313).

Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan bir çox torpaqlarını güzəştə getməyə məcbur olmuşdur:

1. İrəvan qəzası - 3 100, 2 kv.km
2. Zəngəzur (çox hissəsi) - 5 225, 4 kv.km
3. Qazax (dağlıq hissəsi) - 2 980,3 kv.km

Cəmi: 12 779,6 kv.km ərazi Ermənistana "bağışlandı" (Zeynalova T.M. Azərbaycanda milli dövlət quruculuğu tarixindən (1920-30-cu illər). Bakı, 2004, s.49). Nəticədə Batum müqaviləsinə əsasən Ermənistanın ərazisi 9,2 min kvadratkilometrdən 1922-ci ildə 28,1 min kvadratkilometrə çatdı. Ancaq bu da hələ son hədd deyildi. Ermənistanın işğalçılıq siyasəti davam edirdi. 1928-ci ildə respublikanın cənub-qərbində Azərbaycana məxsus olan 170 km yol "sərəncamla" Ermənistan şose yolları idarəsinə verildi.

Beləliklə, Azərbaycanın ərazi bütövlüyünə edilən qəsd və torpaqlarımızın zəbt edilməsi mərkəzin "parçala–hökmranlıq et" məkrli və avantürist siyasətinin məntiqi nəticəsi, inzibati-amirlik rejiminin yaratdığı zəhərli milli şovinizmin sərt mahiyyəti idi. Görkəmli dövlət xadimi Nəriman Nərimanovun sözləri ilə desək "...Mərkəz Azərbaycanın mübahisəsiz ərazilərini Ermənistana verir... həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanmış və üstəlik Azərbaycanın ərazilərini almışdır" (Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub). Bakı, 1992, s. 62). Əlavəyə zərurət var: "almışdır" yox, avantürist Mərkəzin himayəsi ilə "işğal etmişdir" desək, daha doğru olar.

Sovetlər dönəmində ermənilər zaman-zaman Azərbaycan torpaqlarını işğal etmək siyasəti aparmışlar. 1984-cü ildə ermənilər tərəfindən Dağlıq Qarabağın azərbaycanlılardan ibarət Pirməkin kəndi yer üzündən silindi. Kəndin 60 azərbaycanlı ailəsinin mal-qarası əlindən alındı, zorla köçürüldü, evləri uçuruldu. O vaxt gözdən pərdə asmaq üçün cinayət işi açıldı, ancaq 5 aydan sonra işə xitam verildi. Bu cinayətə Moskva və Azərbaycan rəhbərliyi göz yumdu. Moskvanın himayəsi ilə Qazax rayonunun Yuxarı Salahlı, Əskipara, Şıxlı, Kəmərli və b. kəndlərin 5 min hektar torpaq sahəsi Ermənistana verildi (Azərbaycan tarixi. 7 cilddə. VII cild, Bakı: Elm,2000, s.256).

Ermənistanın hakim dairələri sovet imperiyasının 70 illik dövründə Azərbaycan torpaqlarını ələ keçirmək siyasətindən əl çəkməmişdilər. Şovinist ruhlu erməni liderləri XX əsrin 80-ci illərinin ortalarından başlayaraq rəsmi Moskvanın dəstəyi ilə çıxış etməyə və Dağlıq Qarabağı işğal etmək siyasətinə başladılar. "Böyük Ermənistan" dövləti yaratmaq üçün uydurma Dağlıq Qarabağ problemi yaratdılar, sovet rəhbərlərinin və sovet ordusunun hərbi-texniki köməyi ilə Azərbaycanın şəhər və kəndlərini, Dağlıq Qarabağ ərazisini, 7 rayonu işğal etdilər.

Araşdırmalar nəticəsində belə bir acı həqiqətdən aydın olur ki, ümumiyyətlə, XX əsrin 20-90-cı illərində Azərbaycana məxsus olan 40,681 kv.km ərazi Ermənistan tərəfindən işğal olunmuşdur (Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı: Azərbaycan, 2001, s. 134).

Bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda çıxışında demişdir: "Ermənistan dövləti tarixi Azərbaycan torpaqları üzərində qurulub. Bu, bizim dədə-baba torpaqlarımızdır. Bütün toponimlər Azərbaycan mənşəlidir. Bunu bilmək üçün XX əsrin əvvəllərində çar Rusiyasında tərtib olunan xəritələrə baxmaq kifayətdir. Orada bir dənə də erməni toponimi tapmaq mümkün deyil. İndiki Ermənistanda bütün kəndlərin 80 faizi Azərbaycan mənşəli adlar daşıyır. Yəni bu, bizim tarixi torpaqlarımızdır və biz mütləq o torpaqlara qayıdacağıq" (bax: "Respublika" qəzeti, 11 aprel 2015-ci il).

**Nuru MƏMMƏDOV,**
**professor.**